

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 114 (21.775)

16 iyun 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonqu qəbul edib.

Martin Çunqonq ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin dinc şəraitdə yaşamasının önəmini qeyd edərək, Parlamentlərarası İttifaqın Azərbaycan ilə əməkdaşlıqda xüsusilə maraqlı olduğunu bildirib. Ölkəmiz haqqında həmişə yaxşı məlumatlar eşitdiyini deyən Martin Çunqonq bu həqiqətlərin bütün dünyaya çatdırılmasının vacibliyini qeyd edib.

Parlamentlərarası əlaqələrin önəminə toxunan dövlətimizin başçısı Azərbaycanın MDB, Avropa Şurası, ATƏT və digər beynəlxalq təşkilatların parlament assambleyaları ilə əməkdaşlıq etdiyini deyib və bildirib ki, bu çoxşaxəli əməkdaşlıq uğurlu nəticələr verir. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanda təşkil olunan yüksək səviyyəli beynəlxalq tədbirlər, səfərlər xalqlar və millətlər arasında dialoq, tolerantlıq və qarşılıqlı anlaşma mühitinin yaradılmasında xüsusi rol oynayır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də “John Deere” şirkətinin sədri və baş icraçı direktoru Samuel Alleni qəbul edib.



## Naxçıvanda iftar süfrəsi açılıb





İyunun 14-də keçirilən iftar mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin ***“Dini dəyərlər hər bir cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni inkişafı üçün möhkəm zəmin yaradan mənəvi keyfiyyətlər formalaşdırır”***, fikrini xatırladaraq demişdir: Azərbaycan xalqı əsrlər boyu zəngin dini-mənəvi dəyərlər sistemi yaratmış, bəşər mədəniyyətinə böyük töhfələr vermişdir. Ramazan ayı da milli-mənəvi həmrəyliyin və humanizmin təntənəsini nümayiş etdirən ən ali dini dəyərimizdən biridir. Müqəddəs “Qurani-Kərim”in insanlara çatdırıldığı bu ayın ən böyük fəziləti sülhə, əmin-amanlığa və savab işlərə çağırışdır.

“2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmuş Naxçıvanda həmişə olduğu kimi, bu gün də dini-mənəvi dəyərlərimizə hörmətlə yanaşılır. Bugünkü iftar süfrəsi də xoş niyyətin, dini-mənəvi dəyərlərimizə hörmətin və birliyin ifadəsidir”, – deyən Ali Məclisin Sədri müqəddəs Ramazan ayında niyyətlərin və duaların qəbul olunmasını arzulamışdır.

Mərasimdə “Qurani-Kərim”dən ayələr oxunmuş, dualar edilmişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ağciyər və Psixi xəstəliklər dispanserlərində, Naxçıvan Muxtar Respublikası Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində, eləcə də Hərbi hospitalda müalicə alan xəstələr üçün də iftar süfrələri açılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirilib





Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən iyunun 12-dən etibarən Naxçıvanda iki ölkənin Silahlı Qüvvələrinin birgə əməliyyat taktiki təlimləri başlanmışdır.

İyunun 15-də – Milli Qurtuluş Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikası Silahlı Qüvvələrinin mexanikləşdirilmiş briqada komandiri, general-mayor Ərcan İlhan birgə əməliyyat taktiki təlimi izləmişlər.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini – Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev təlimə hazırlıq barədə Ali Məclisin Sədrinə raport vermişdir.

Əməliyyat taktiki təlimin planı ilə tanış olduqdan sonra bildirilmişdir ki, təlimin keçirilməsində məqsəd Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətləri arasında əməliyyatların birgə icra edilməsində uzlaşmış fəaliyyətə nail olunması, qoşunların idarə edilməsində vahid prosedurların işlənib hazırlanması və Əlahiddə Ümumqoşun Ordu ilə müxtəlif güc strukturlarının birgə fəaliyyətinin planlaşdırılmasından ibarətdir. Təlimə Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələri ilə yanaşı Əlahiddə Sərhəd Diviziyasının, Əlahiddə Əməliyyat Briqadasının və Mülki Müdafiə Alayının bölmələrinin ümumilikdə 5 minə yaxın şəxsi heyəti, 250-dən artıq zirehli və 500-ə yaxın avtomobil texnikası cəlb edilmişdir.

Üç mərhələdə keçirilən təlimin birinci mərhələsində Əlahiddə Ümumqoşun Ordunun, digər güc strukturlarının və Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri tam döyüşə hazırolma vəziyyətinə gətirilərək düşmənin dayandırılması və əks-zərbə əməliyyatı planlaşdırılması aparılmışdır. İkinci mərhələdə əks-zərbənin endirilməsi, düşmənin darmadağın edilməsi və itirilmiş vəziyyətin əlverişli hədlər üzrə bərpa edilməsi, üçüncü mərhələdə isə əks-hücumu davam etdirərək, düşmən ehtiyatlarının məhv edilməsinin başa çatdırılması və əlverişli ərazi sahələrinin nəzarət altına alınması tapşırıqları icra olunmuşdur.

Təlimin ssenarisinə əsasən düşmənin fəaliyyətinin izlənilməsi, atəş vasitələrinin, ehtiyatlarının və vacib obyektlərinin koordinatlarının dəqiq təyin olunması məqsədi ilə pilotsuz uçuş aparatları və vizual müşahidə vasitələrindən istifadə etməklə kəşfiyyat bölmələri fəaliyyətə başlamışdır. Naxçıvan Əlahiddə Sərhəd Diviziyasının Çevik Hərəkət Taboru hücum əməliyyatını davam etdirməyə qüvvəsi yetməyən düşmənin dövlət sərhədi

Ardı 2-ci səhifədə





boyu keçirdiyi kəşfiyyat-diversiya fəaliyyətlərinə qarşı tədbirlər görərək dövlət sərhədini möhkəmləndirmiş, hava məkanını pozmuş düşmən aviasiyası hava hücumundan müdafiə bölmələrinin dəqiq zərbələri ilə məhv edilmişdir.

Yüksək dəqiqlikli atəş idarəetmə sistemləri





ilə təchiz edilmiş Əlahiddə Ümumqoşun Ordunun artilleriya birləşmə, hissə və bölmələri düşmənin toplanma rayonlarına çıxarılmış bölmələrinə, aviasiya eskadrilyasının atəş-dəstək vertolyotları isə düşmənin ehtiyatlarına və zirehli obyektlərinə atəş zərbələri endirmişlər.

Müasir raket, reaktiv və artilleriya sistemlərinin cəlb edilməsi ilə əks-zərbə planına uyğun olaraq ordu artilleriyası atəş hazırlığına başlayaraq düşmənin müdafiə dərinliyində yerləşən vacib dövlət və hərbi obyektlərinə, silah sistemlərinə, artilleriya və idarəetmə məntəqələrinə zərbələr vurmuşdur. Tanklar, piyadanın döyüş maşınları və tank əleyhinə vasitələrlə düşmənin ön xəttində və yaxın dərinliyində yerləşən zirehli texnikaları və "TOS-1A" müasir ağır odatan sistemi ilə onun taqım dayaq məntəqələri, artilleriya və minaatan batareyaların atəş mövqeləri məhv edilmiş, Əlahiddə Ümumqoşun Ordu Komandanı əldə edilmiş atəş üstünlüyündən istifadə edərək düşmənə qətiyyətli zərbə endirmək məqsədilə birləşmə və hissələrin hücuma keçməsi üçün əmr vermişdir.

Təlimin gedişində təmir-təxliyə, maddi-



texniki və tibbi təminat tapşırıqları da uğurla yerinə yetirilmişdir.

Dağlıq ərazidə texnikanın hərəkətinin məhdud olduğu rayonlarda atəş dəstəyinin fasiləsiz təmin edilməsi üçün artilleriya bölmələrinə "Mİ-17V" tipli nəqliyyat vertolyotlarından "Mİ-35M" vertolyotlarının hava növbətçiliyi ilə paraşütlə döyüş sursatı atılmışdır. Bölmələrin hücumunun dərinliyə sürətlə inkişaf etdirilməsi üçün taktiki və hava desantı təyin olunmuş rayonlara vertolyotlar vasitəsilə endirilmişdir.



Təlimə cəlb edilmiş birləşmə və hissələr qarşıya qoyulmuş tapşırıqları uğurla yerinə yetirərək hədəf və maketlərin 90 faizindən çoxunu məhv etmiş və düşmən üzərində qələbə çalmışlar.

Sonda hərbi vertolyotlar Azərbaycan və Türkiyə bayraqlarını səmada nümayiş etdirmiş, ümummilli lider Heydər Əliyevin ***"Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam"*** kəlamı səslənmişdir.

Ali Məclisin Sədri Əlahiddə Ümumqoşun Ordunun silahlanmasına daxil olmuş yeni silah, texniki avadanlıqlar və pilotsuz uçuş aparatlarına baxmışdır.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini – Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev təlimin başa çatması barədə raport verdikdən sonra təlimdə iştirak edən şəxsi heyətlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov əsgər, zabit və tədbir iştirakçılarını Azərbaycan və Türkiyə silahlı qüvvələrinin birgə təlimlərinin başa çatması və Azərbaycan xalqının Milli Qurtuluş bayramı münasibətilə təbrik edərək demişdir: Bu gün Milli Qurtuluşun bəhrələri özünü Azərbaycan xalqının həyatının bütün sahələrində, o cümlədən ordu quruculuğunda da göstərir. Dövlətin müstəqilliyi onun ordusunun qüdrətindən asılıdır. O ölkədə güclü ordu yaradıla bilər ki, orada sabitlik və iqtisadi inkişaf olsun. Milli Qurtuluş Günündən başlanan sabitlik və həyata keçirilən sosial-iqtisadi islahatlar Azərbaycan ordusunu daha da qüdrətləndirmişdir.

Ali Məclisin Sədri demişdir: Bu gün müstəqil Azərbaycanda ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Ölkə Prezidentinin rəhbərliyi ilə ordumuz inkişaf edərək ən müasir səviyyəyə gəlib çatmışdır. Ən yeni silah və texnika ilə təminat, vətənpərvər və peşəkar şəxsi heyət, hərbi qulluqçulara davamlı qayğı Azərbaycan ordusunun reallıqlarıdır. Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki ordu və birləşmələri də mühüm təşkilatlanma yolu keçərək daha da möhkəmlənmişdir. Azərbaycan xalqının Milli Qurtuluş tarixinin mühüm bəhrələrindən biri də Azərbaycan-Türkiyə birliyinin daha da möhkəmlənməsidir. 1993-cü ildə xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan-Türkiyə münasibətlərini bir millətin iki dövləti səviyyəsinə qaldırmışdır. Hərbi əməkdaşlıq haqqında sazişə əsasən keçirilən hərbi təlimlər bu birliyin, dostluğumuzun və qardaşlığımızın daha bir parlaq ifadəsi oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan-Türkiyə birliyinin strateji əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: ***"Bizim gücümüz bizim birliyimizdədir. Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür".*** Birgə hərbi təlim bir daha təsdiq etdi ki, ordunun gücü yalnız silah və texniki təminatla ölçülmür. Ordunun gücü həm də onun sıralarında xidmət edən şəxsi heyətin ruh yüksəkliyi, möhkəm iradəsi, vətənpərvərliyi və peşəkarlığı ilə ölçülür. Hərbi təlimlərdən çıxan nəticə budur ki, Azərbaycan və Türkiyə ordusu peşəkar olduğu qədər də vətənpərvərdir. Şəxsi heyətlərimiz ən yüksək mənəvi keyfiyyətlərə malikdirlər. Bu, bizim ən böyük nailiyyətimizdir.

Ali Məclisin Sədri hərbi təlimin bütün iştirakçılarını və təşkilatçılarını tapşırıqların uğurlu icrası münasibətilə təbrik etmiş, şəxsi heyətlərə təşəkkürünü bildirmişdir.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini – Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək demişdir ki, Əlahiddə Ümumqoşun Ordu təlimdə tam döyüşə hazır vəziyyətə gətirilmiş, səfərbərlik planları uğurla yerinə yetirilmiş, hərbi hissələr döyüş uzlaşması keçmişdir. Keçirilən birgə əməliyyat taktiki təlim qardaş Türkiyə Silahlı Qüvvələri ilə hərbi sahədə genişmiqyaslı əməkdaşlığın bariz nümunəsidir. Təlimdə qarşıya qoyulan məqsədə nail olunması bir daha təsdiq etdi ki, Əlahiddə Ümumqoşun Ordu Naxçıvanın dayanıqlı və etibarlı müdafiəsinə tam hazırdır.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin mexanikləşdirilmiş briqada komandiri, general-mayor Ərcan İlhan Milli Qurtuluş Günü münasibətilə təbriklərini çatdıraraq demişdir ki, böyük öndərlərimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" və Mustafa Kamal Atatürkün "Yurdda sülh, cahanda sülh" şüarı bu gün keçirilən birgə əməliyyat taktiki təlimdə birliyimizin və bərabərliyimizin ifadəsinə çevrildi. Hər iki silahlı qüvvələrin şəxsi heyəti

*Ardı 3-cü səhifədə*

verilən döyüş tapşırıqlarını peşəkarlıqla yerinə yetirməklə eyni zamanda iki ordu arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu nümayiş etdirdilər. Ərcan İlhan birgə hərbi təlimlərin təşkilində və yerinə yetirilməsində əməyi olanlara minnətdarlıq etmişdir.

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimdə qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdiklərinə görə Azərbaycan və Türkiyə silahlı qüvvələrinin şəxsi heyətlərini təbrik edərək demişdir ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq Naxçıvan Muxtar Respublikasının müdafiə potensialının gücləndirilməsinə xüsusi diqqət yetirilir. Hazırda Əlahiddə Ümumqoşun Ordu yüksək döyüş qabiliyyətinə malikdir və düşmənə layiqli cavab verməyə qadirdir. Düşmən bilməlidir ki, Naxçıvanın müdafiəsində ən peşəkar ordu dayanıb. Zakir Həsənov Naxçıvanda ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri təlimdə fərqlənən zabit, gizir və əsgərləri qiymətli hədiyyələrlə mükafatlandırmışdır.

Sonda zabit, gizir və əsgərlər şəxsi heyət arasındakı birlik və bərabərliyin ifadəsi olan "Hamı bir nəfər, bir nəfər hamı üçün" şüarını səsləndirmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**





## Milli Qurtuluş Günü münasibətilə gənclərin Əlincəqalaya yürüşü təşkil edilib

İyunun 15-də, Milli Qurtuluş Günündə muxtar respublika gəncləri "Qurtuluşdan Əlincəqalaya" devizi altında Əlincəqalaya yürüş etmişlər. Yürüşdə federasiyaların idmançıları və tələbə-gənclər iştirak etmişdir.

Yürüşdən əvvəl gənclər milli qurtuluşumuzun memarı ümummilli liderimizin Naxçıvan şəhərində əzəmətlə ucalan abidəsini ziyarət etmiş, gül dəstələri düzmüşlər. Sonra Əcəmi seyrəngahına doğru hərəkət edən gənclər buradan azadlığımızın və şanlı tariximizin simvolu olan Əlincəqalaya yola düşmüşlər.

Əlincəqalanın zirvəsində, ulu öndərimizin portretinin və dövlət bayrağının önündə Naxçıvan Dövlət Universitetinin tələbələri Səyyad Məmmədov və Aysu Məmmədova, Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Aysu Dünyamalıyeva, Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Dünya Əkbərova və Naxçıvan Musiqi Kollecinin tələbəsi Cavid Babayev dahi rəhbərə həsr olunmuş şeirləri bədii qiraət etmişlər.

Sonra gənclər xatirə şəkli çəkdirmişlər.

Yürüş iştirakçıları "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi ilə də tanış olmuşlar. Burada bələdçilər tərəfindən yürüş iştirakçılarına məlumat verildi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Əlincəqalada aparılan bərpa işləri zamanı qalanın tarixiliyi qorunub saxlanılıb. Qala divarları, bürc və giriş qapıları, qədim yaşayış evləri, təsərrüfat binaları, su hovuzları və təndirlər, səngər və mühafizə yerləri ilkin forması saxlanılaraq bərpa olunub. Qalanın zirvəsinə doğru yol çəkilib, qala ərazisində işıqlandırma sistemləri yaradılıb, oturacaqlar qoyulub, yaşıllıqlar salınıb. Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalanın şərq və qərb darvazaları da bərpa edilərək əvvəlki görkəminə qaytarılıb. Qalanın zirvəsinə gedən yolda daş üzərində həkk olunan "Tarixi yaşadanları tarix də yaşadacaqdır" kəlamı Əlincəqalanın bərpasının xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıdığını bir daha təsdiq edir. Əlincəqalada məskunlaşan əcdadlarımızın həyat tərzini əks etdirən maddi-mədəniyyət nümunələri, xüsusilə qədim məişət əşyaları, qalada aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi nümunələr, Naxçıvanın və Əlincəqalanın tarixi ilə bağlı çap olunmuş kitablar, qəzet məqalələri, qalanın bərpadan əvvəl, bərpa zamanı və bərpadan sonrakı fotoşəkilləri burada aparılan quruculuq tədbirlərinin miqyası barədə gənclərdə dolğun təəssürat yaradıb.





Yürüş iştirakçısı olan gənclərdən bir neçəsi ilə görüşüb həmsöhbət olduq, təəssüratlarını öyrəndik. Tələbə-gənclərdən və idman federasiyalarının üzvlərindən İbrahim Musayev, Taleh Dünyamalıyev, Səma Tağıyeva, Nərmin Babazadə, Yeganə Ağayeva və Ceyran Məmmədova ilə söhbətlərdən aydın oldu ki, onların yüksək əhval-ruhiyyə ilə qatıldıqları yürüş, ümumilikdə, Naxçıvan gəncliyinin ulu öndərimizin əziz xatirəsinə hörmət və ehtiramının ifadəsidir. Ümummilli liderimizin Azərbaycan gəncliyinə ən böyük mirası müstəqil Azərbaycandır. Milli Qurtuluş Günü münasibətilə yürüşün ünvanı olaraq Əlincəqala tarixi abidəsinin seçilməsi isə təsadüfi deyil. Çünki xalqımızın əyilməzlik abidəsi olan Əlincəqalaya ikinci həyat verilməsi də Milli Qurtuluşun bəhrəsidir.



**"Şərq qapısı"**

## Naxçıvanın iqtisadi potensialı Qazaxıstanın ölkəmizdəki səfirində dərin təəssürat yaradıb

***Xəbər verdiyimiz kimi, Qazaxıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Beybit İsabayev iyunun 14-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlib. İki gün davam edən səfəri çərçivəsində səfir muxtar respublikanın istehsal və təhsil müəssisələri ilə tanış olub.***

Diplomat əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib. Burada qonağa məlumat verilib ki, muzeyin fondunda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən 4 min 600-dən çox eksponat toplanıb. Ulu öndər tərəfindən qəbul edilən qərar və sərəncamlar, imzalanan protokol və müqavilələr, ümummilli liderə göndərilmiş məktub və teleqramlar mənalı ömür yolunun müxtəlif anlarını özündə əks etdirməklə, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin dövlətçilik və ictimai-siyasi fəaliyyəti barədə də dolğun təsəvvür yaradır.



Naxçıvan Biznes Mərkəzinə gələn Beybit İsabayevə bildirilib ki, burada muxtar respublikanın 96 istehsal və xidmət müəssisəsi tərəfindən istehsal edilən məhsullar nümayiş olunur. Bu gün muxtar respublikada 367 növdə məhsul istehsal edilir. Bu məhsulların 121 növü ərzaq, 246 növü qeyri-ərzaq məhsullarıdır. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat tamamilə daxili imkanlar hesabına ödənilir. Bütün bunlar – iqtisadiyyatın şaxələndirilməsi və sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi özəl sektorun inkişaf etməsinə yaradılan şəraitin bəhrəsidir.

Sərgidə 900-dən çox müxtəlif adda məhsul nümayiş etdirilir. Muxtar respublikamızdakı iri özəl sektor təmsilçiləri ilə yanaşı, çox sayda digər orta və kiçik biznes qurumlarının məhsulları da burada öz yerini tutmuşdur.

Milli dəyərlərimizin mühüm nümunələri olan xalçaçılıq, dekorativ-tətbiqi sənət, dulusçuluq, rəssamlıq və ağac üzərində oyma işləri səfirin diqqətini cəlb edib. Bildirilib ki, mərkəzin nəzdində xalq yaradıcılığı emalatxanası və iki satış mağazası fəaliyyət göstərir.

Qazaxıstanlı səfir Beybit İsabayev Naxçıvan Dövlət Universitetində də olub. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov muxtar respublikada təhsilin inkişafına göstərilən dövlət qayğısından danışıb, universitetin strukturu, maddi-texniki bazası, professor-müəllim heyəti, ali təhsil ocağındakı mövcud fakültə və ixtisaslar haqqında ətraflı məlumat verib.

Rektor qeyd edib ki, dünyanın 50-dən artıq ölkəsinin 80-dən çox universiteti ilə beynəlxalq əməkdaşlığa malik olan, bir sıra beynəlxalq layihələrdə uğurla təmsil olunan ali təhsil ocağında dünya universitetləri ilə virtual əməkdaşlıq, beynəlxalq videokonfranslarda iştirak etmək üçün də geniş imkanlar var. Tələbə mobilliyinin inkişafı nəticəsində bu ali məktəbin bakalavr və doktorantları öz təhsillərini Türkiyə, İspaniya, Fransa, Cənubi Koreya, Rusiya, Rumıniya və digər Avropa ölkələrinin ali məktəblərində uğurla davam etdirirlər.

İyunun 15-də Qazaxıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Beybit İsabayevin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

Diplomat "Şərq qapısı" qəzetinə müsahibəsində səfər təəssüratları barədə danışaraq deyib:

– Bu, mənim Qazaxıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri kimi Naxçıvan Muxtar Respublikasına ilk səfərimdir. Naxçıvan şəhərinin təmizliyi, gözəlliyi, insanların gülərüz və qonaqpərvərliyi məni valeh etdi. Burada bir sıra yüksək səviyyəli görüşlər keçirdim. Naxçıvanın iqtisadiyyatı, eləcə də kənd təsərrüfatının yüksək inkişafı haqqında ətraflı məlumat aldım. Sözün açığı, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan muxtar respublikada olan istehsal sahələri, fabrik və zavodların mövcudluğu, enerji idxalatçısından ixracatçısına çevrildiyini, Naxçıvanın hərtərəfli inkişafını görmək dost və qardaş ölkənin nümayəndəsi kimi məni çox sevindirdi.

Bu gün Azərbaycan ilə Qazaxıstan arasında münasibətlər yüksək səviyyədədir. Düşünürəm ki, Qazaxıstanla Naxçıvan Muxtar Respublikası arasında bir çox sahələrdə, o cümlədən iqtisadiyyat və təhsil sahəsində uğurlu əməkdaşlıq əlaqələri qurulmalıdır. Bu əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm.

**Xəbərlər şöbəsi**

# Tofiq Bakıxanov: Naxçıvana həsr olunan mahnılar bəstələmək mənim üçün fəxrdir

*Görkəmli bəstəkar, Xalq artisti, Prezident təqaüdçüsü, Bakı Musiqi Akademiyasının professoru, "Şöhrət" ordenli, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Tofiq Bakıxanov bu günlərdə növbəti dəfə Naxçıvanda olub. Azərbaycanın məşhur alimi, tarixçisi, şairi və ictimai xadimi Abbasqulu ağa Bakıxanovun (Qüdsi) nəticəsi, Xalq artisti Əhməd Bakıxanovun ailəsində dünyaya göz açan, 90 yaşın astanasında olan tanınmış bəstəkar-ziyalı ilə söhbətimiz, düşünürük ki, oxucularımız üçün də maraqlı olacaq.*



***– Tofiq müəllim, xoş gördük. Əvvəlcə Naxçıvanda yaradıcı ziyalıya, sənətkara, milli musiqimizə olan münasibətlə bağlı fikirlərinizi bilmək istərdik.***

– Muxtar respublikada təkcə sosial-iqtisadi sahə deyil, elm, təhsil və mədəniyyət də daim diqqət mərkəzində saxlanılır. Musiqi sahəsinə gəlincə, görkəmli bəstəkarlarımız Qəmbər Hüseynlinin və Tofiq Quliyevin 100 illik yubileyləri Naxçıvanda yüksək səviyyədə qeyd edilib. Tofiq Quliyevin bu il aprelin 21-də keçirilən 100 illik yubileyində mən də iştirak edirdim. Tədbirdə Xalq artisti Çingiz Axundovun rəhbərlik və baş dirijorluq etdiyi Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestri tərəfindən Tofiq Quliyevin əsərlərinin yüksək səviyyəli ifasının da şahidi oldum. Bütün bunlar Naxçıvanda milli mədəniyyətə bağlılığın, incəsənətə göstərilən dövlət qayğısının təzahürüdür.

***– Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi ilə sıx əlaqələriniz var. Buradakı musiqi təhsilinin səviyyəsi sizi nə dərəcədə qane edir?***

– Burada peşəkar musiqi təhsili üçün hər cür şərait yaradılıb. Ustad dərsləri zamanı tələbələrdən ibarət kamera orkestri, xalq çalğı alətləri orkestri, bəstəkarlıq sinfi və simli alətlər şöbəsinin tələbə və müəllimləri ilə görüşüb söhbət etdik, gənclərə bəzi tövsiyələrimizi verdik. Bəstəkarlıq sinfinin birinci kurs tələbəsi Hakim Məmmədovun müəllif konsertini xüsusilə bəyəndim. Müəllim Yaşar Xəlilovun sinfində oxuyan bu gənc olduqca istedadlıdır. Onun kamera orkestrinin müşayiəti ilə yazılmış əsərləri peşəkarlıqla ifa etməsi məni çox sevindirdi. Xalq çalğı alətləri şöbəsindən tar sinfi üzrə ikinci kurs tələbəsi Abdulla Rəhimlinin (müəllimi Vahid Məmmədov, konsertmeysteri isə Nərminə Qədimovadır) solo konsertində iştirak etdim. Çox maraqlı repertuarı var idi. Tələbə tarzən Fikrət Əmirov, Cahangir Cahangirov və Səid Rüstəmovla yanaşı, mənim də bir əsərimi ifa etdi və hər bir ifanın öhdəsindən bacarıqla gəldi. Texniki cəhətdən özünü hətta virtuoz ifaçı kimi göstərə bildi. Lirik əsərləri də gözəl ifa etməsi daha təqdirəlayiq idi. Yəni ixtisas müəllimləri tələbələrin istedadından məharətlə istifadə edə bilirlər.

***– Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında keçirilən, ilk naxçıvanlı bəstəkar Məmməd Nəsirbəyovun 120 illik yubiley tədbirində iştirak etdiniz. Çox maraqlı çıxışınızla Məmməd Nəsirbəyovun həyat və yaradıcılığına yenidən işıq saldınız. Bu çıxışınıza onunla bağlı xatirələrinizin hamısını sığdırmaq mümkün oldumu?***

– Açığını deyim ki, yubiley tədbirində onun haqqında çox qısa şəkildə danışa bildim. Elə bilirəm ki, Məmməd Nəsirbəyovun yubileyinə ən böyük töhfəm tanınmış bəstəkar Nazim Quliyevlə araya-ərsəyə gətirdiyimiz "Məmməd Nəsirbəyov – 120" kitabıdır. Ancaq bu, hələ son demək deyil. Onun haqqında tədqiqatlarımı davam etdirirəm, yeni-yeni faktlar aşkara çıxarmağa çalışıram.

Bu dəyərli insanla tanışlığım 1940-cı ilə təsadüf edir. Həmin il onunla konservatoriya binasının ikinci mərtəbəsində, dahi bəstəkar Üzeyir Hacıbəyovun kabinetinin önündə qarşılaşmışdıq. Təsadüfi tanışlıq zamanı öyrəndim ki, o, artıq konservatoriyanın bəstəkarlıq sinfini bitirib. Sonralar burada bir neçə dəfə rastlaşdıq. Bir dəfə ondan buraya tez-tez baş çəkməsinin səbəbini soruşdum. Dedi ki, yaradıcılığa yeni başladığından Üzeyir Hacıbəyovun tövsiyələrinə çox ehtiyac duyur. Ona görə də hər addımda öz müəllimindən məsləhət alır. Həmin il mən artıq gənc skripkaçı kimi radiolarda, konsert zallarında tanınmış bəstəkarların əsərlərini ifa edirdim. Bir gün yenidən konservatoriyada qarşılaşarkən ifamı çox bəyəndiyini, skripka və fortepiano üçün əsər yazdığını dedi, bu əsəri ifa etməyi məndən xahiş etdi. Təbii ki, bu, mənim üçün gənc bəstəkarlardan gələn ilk təklif idi. Digər tərəfdən ona görə razı olmuşdum ki, o, Üzeyir Hacıbəyovdan sonra skripka aləti üçün əsər yazan ilk gənc bəstəkar idi. Beləliklə, mən məmnuniyyətlə bu təklifi qəbul etdim.

Gözəl tarzən və yaxşı müəllim olan atamla – Əhməd Bakıxanovla Məmməd Nəsirbəyovu yaradıcılıq əlaqələri birləşdirirdi. Sonralar o deyirdi ki, atamın tarda muğamları ifa etməsi onu heyran edib, konservatoriya illərində o, tez-tez atamın dilləndirdiyi tarın səsinə qulaq asıb. Məmməd Nəsirbəyovun təşəbbüsü ilə Suraxanı rayonunda musiqi məktəbinin açıldığını, özünün də oraya direktor təyin edildiyini eşidib çox şad olmuşdum. Bu xəbəri mənə qardaşım Məmmədrza Bakıxanov vermişdi. Qardaşım onu da deyirdi ki, Məmməd Nəsirbəyov uşaqlarla çox mehriban davranır, son dərəcə səmimi insandır, özünü pedaqoji kollektivin sıravi bir üzvü kimi aparır. Bu səbəbdən də hər kəs onu sevir, böyük hörmət bəsləyir. Sonralar mən onunla tez-tez görüşərdim, maraqlı söhbətlər edərdik. O, mənə öz həyatı haqda danışardı. Get-gedə məndə ona qarşı hörmət və ehtiram yarandı.

***– Naxçıvanda artıq bir neçə dəfə olmusunuz. Bilmək istərdik ki, ilk gəlişinizdən sonra sizə bu diyarı daha da sevdirən hansı amillər olub?***

– Maraqlı sualdır. Bu suala bir və ya bir neçə cavab verməkmümkündür. Əvvəlcə onu deyə bilərəm ki, bu diyara ilk gəlişim zamanı çoxlu müşahidələrim olub. Təbiətin də seyrinə çıxmışam, insanlarla da ünsiyyətdə olmuşam. Bu diyarın təbiətini də çox sevmişəm, insanlarını da. Sualınıza ikinci cavabım sənətkara, incəsənət adamına böyük hörmət və diqqət məsələsidir. Bildiyiniz kimi, hər dəfə mən muxtar respublikaya gəldiyimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri məni qəbul edir, yaradıcılıq sahəsindəki yeniliklərlə maraqlanır. Məhz muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyi Naxçıvan Muxtar Respublikasında yüksək səviyyədə qeyd edilib. Muxtar respublika rəhbəri mənim 75, 80, 85 illik yubileylərimin Naxçıvanda qeyd olunmasına da böyük həssaslıqla yanaşıb. Bütün bunlara görə qəzetiniz vasitəsilə sənətin və sənətkarın dostu olan, sənətkarlar tərəfindən yaradılanları yaşadan hörmətli Ali Məclis Sədrinə minnətdarlığımı bildirirəm.

Bu günə qədər Naxçıvan haqda bir çox əsərlər yaratmağa səy göstərmişəm. Bundan sonra da çalışacağam ki, Naxçıvan haqda mahnılarımı ən gözəl notlar üzərində kökləyim, yeni-yeni əsərlər yaradım. Naxçıvana həsr olunan mahnılar bəstələmək mənim üçün fəxrdir.

***– Maraqlı müsahibə üçün sağ olun!***

**Səbuhi HÜSEYNOV**

# Növbəti çimərlik mövsümü açılıb

***Naxçıvan Muxtar Respublikasında şəhər infrastrukturunun inkişafı ilə yanaşı, insanların sağlamlığının qorunması və istirahətinin səmərəli təşkili də diqqət mərkəzində saxlanılır. 2014-cü ilin iyul ayında Uzunoba Su Anbarında yeni çimərliyin istifadəyə verilməsi bu sahədə həyata keçirilən tədbirlərin davamı olmaqla bərabər, həm də insan amilinə verilən qiymətin daha bir ifadəsidir. Ötən il olduğu kimi, bu il də şəhər sakinləri Uzunoba İstirahət Kompleksində fəaliyyət göstərən Naxçıvan şəhər çimərliyində öz vaxtlarını səmərəli keçirəcəklər.***



İyunun 15-də Naxçıvan şəhər çimərliyində çimərlik mövsümünün başlanması münasibətilə tədbir keçirilib.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov tədbirdə çıxış edərək deyib ki, bu gün Naxçıvan şəhərində insanların sağlamlıqlarının qorunması və istirahətinin səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Naxçıvan şəhər çimərliyi də bu sahədə həyata keçirilən tədbirlərin davamı kimi mühüm əhəmiyyət daşıyır. Yeni mövsümə başlayan çimərlikdə yüksək səviyyəli istirahət və xidmət şəraiti yaradılıb. Burada restoran və digər xidmət sahələri fəaliyyət göstərir. Bu da isti yay günlərində sakinlərin və şəhərə gələn qonaqların istirahətinin səmərəli təşkilinə imkan verəcək.

Sonra Naxçıvan Muxtar Respublikası fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev yeni mövsümdə Naxçıvan şəhər çimərliyində həyata keçirilən tədbirlər barədə məlumat verib, burada göstəriləcək təhlükəsizlik xidmətlərindən danışıb.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin rəisi əvəzi, polkovnik-leytenant Azadil Hüseynov qeyd edib ki, çimərliyin ümumi sahəsi 14 min 850 kvadratmetrdir. Böyüklər və uşaqlar üçün nəzərdə tutulan çimərlik iki hissədən ibarətdir. Uşaqlar üçün çimərliyin uzunluğu 30 metr, eni 15 metr, dərinliyi isə 70-120 santimetrdir. Böyüklər üçün çimərliyin uzunluğu isə 255 metr, eni 20 metr, dərinliyi isə 2-4 metrdir. Suyun üzərində çimərlik sərhədinin qurtardığını bildirən qadağanedici nişanlar qoyulub. Ərazidə insanların istirahət etməsi üçün lazımi şərait yaradılıb. Çimərlik istirahət zonasında su və digər idman növləri üzrə yarışların, eləcə də gənclərin iştirakı ilə müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait vardır. Burada təhlükəsizlik tədbirləri də diqqətdə saxlanılır. Bu məqsədlə müşahidə qülləsi yaradılıb, ərazidə xəbərdaredici və məlumatlandırıcı lövhələr vurulub.

Çimərlik səhər saat $11^{00}$-dan axşam saat $20^{00}$-dək açıq olacaqdır. Naxçıvan şəhərindən çimərliyə və əks istiqamətə avtobus xidməti də göstəriləcəkdir.

**Nail ƏSGƏROV**

# Ali təhsil ocağının 50 illik yubileyi Babək rayonunda qeyd olunub

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsi haqqında 2017-ci il 14 yanvar tarixdə imzaladığı Sərəncama uyğun olaraq təşkil edilən tədbiri muxtar respublikanın təhsil naziri Məmməd Qəribov açıb.

Naxçıvanda elm və təhsilin hərtərəfli inkişafına göstərilən yüksək dövlət qayğısından danışan nazir qeyd edib ki, təkcə 2016-cı ildə muxtar respublikada, ümumilikdə, 3414 şagird yerlik 12 məktəb binası istifadəyə verilib, 3 tədris müəssisəsi isə yenidən qurulub.

Bildirilib ki, Naxçıvan Dövlət Universiteti ilə ümumtəhsil məktəblərinin birgə fəaliyyəti təhsil strategiyasının əsasını təşkil etməlidir. Muxtar respublikada 500-700 intervalında bal toplayan abituriyentlərin Naxçıvan Dövlət Universitetini seçmələri bu ali təhsil ocağına olan inamın ifadəsidir.

Nazir universitetin 50 illik yubileyi münasibətilə ali təhsil ocağının pedaqoji kollektivini təbrik edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Çıxışında Naxçıvan Dövlət Universitetinin tarixi inkişaf yoluna nəzər salan ali təhsil ocağının rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bu təhsil müəssisəsinin dünyəvi bir universitet olduğunu vurğulayıb.

Rektor universitetin 2014-cü ildə 799 balla, 2017-ci ildə isə 827 balla Azərbaycan Respublikası ali məktəblərinin reytinq cədvəli üzrə birinci yerə layiq görülməsini bu ali təhsil ocağının artan nüfuzunun göstəricisi kimi qiymətləndirib.

Tarix-filologiya fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru, dosent Rəsul Bağırov, Babək Rayon Təhsil Şöbəsinin müdiri Ovni Muradov yerli kadrların hazırlanmasında Naxçıvan Dövlət Universitetinin mühüm rola malik olduğunu qeyd ediblər.

Sonra "Naxçıvan Dövlət Universitetinin inkişaf yolu" adlı sənədli filmə baxış olub. Rayon mədəniyyət evində keçirilən yubiley tədbirində İncəsənət fakültəsinin bir qrup tələbəsi konsert proqramı ilə çıxış edib.

**Səadət ƏLİYEVA**

# XII-XIX əsrlərdə Naxçıvanda sənətkarlıq sahələrindən bəhs edən yeni nəşr



*AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru, dosent Sara Hacıyevanın "Naxçıvanda sənətkarlıq" adlı monoqrafiyası çapdan çıxıb.*

Tədqiqat əsərində ilk dəfə olaraq orta əsrlər dövründə Naxçıvan ərazisində fəaliyyət göstərən sənətkarlıq sahələri araşdırılıb və təhlil edilib.

"Sənətkarlıq mərkəzlərinin təşkili və inkişafı", "Sənətkarlıq sahələri", "Sənətkarlıq məhsulları", "İqtisadiyyatın inkişafında və ticarət əlaqələrinin genişlənməsində sənətkarlığın rolu" bölmələrindən ibarət olan monoqrafiyada Naxçıvan ərazisində orta əsrlər zamanı yaradılan və zəmanəmizədək gəlib çıxan sənətkarlıq məhsulları, bədii daşyonma, toxuculuq, xalçaçılıq, dəmirçilik, misgərlik, zərgərlik, bədii tikmə, boyaqçılıq, miniatür və digər nümunələr barəsində məlumatlar yer alıb.

Yeni nəşrdə Azərbaycan tədqiqatçıları ilə yanaşı, türk və rus alimlərinin tədqiqatları, müxtəlif dövrlərdə bölgəyə səfər edən əcnəbi səyyah, coğrafiyaşünas və tarixçilərin yol qeydləri və əsərləri də öz əksini tapıb. Həmçinin iqtisadiyyatın inkişafında və ticarət əlaqələrinin genişlənməsində sənətkarlığın rolu araşdırılıb. Tədqiqatlarda Naxçıvanda sənətkarlığın inkişaf etməsinin bölgənin iqtisadi həyatının yüksəlişinə səbəb olması ilə bərabər, daxili və xarici ticarət əlaqələrinin genişlənməsinə də təkan verdiyi qeyd olunub.

XII-XIX əsrlərdə Naxçıvanda sənətkarlıq sahələrini öyrənən və elmi məlumatlarla zəngin olan bu nəşrdən geniş oxucu kütləsi faydalana bilər.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 503